**Azərbaycan Respublikası İqtisadiyyat**
**Nazirliyinin Dövlət müəssisələri ilə iş şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) aparatının struktur bölməsi olan Dövlət müəssisələri ilə iş şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində enerji, nəqliyyat, telekommunikasiya və rabitə sahəsində fəaliyyət göstərən, nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin yenidən qurulması, təkmilləşdirilməsi və sağlamlaşdırılması məqsədilə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, bu məqsədlə aidiyyəti dövlət orqanlarından və təşkilatlardan belə müəssisələrin vəziyyəti haqqında lazımi məlumatlar almaq, onları təhlil etmək, dövlət müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, təkmilləşdirilməsi və onların infrastruktur təminatının yaxşılaşdırılması məqsədilə təkliflər vermək, müvafiq tədbirlər hazırlamaq və səlahiyyətləri çərçivəsində həyata keçirmək, dövlət müəssisələrində korporativ idarəetmənin keyfiyyətinin yüksəldilməsində, korporativ idarəetmə prinsip və üsullarının, o cümlədən müasir korporativ idarəetmə sistemlərinin tətbiq edilməsi sahəsində işlərin təşkili və tənzimlənməsində, habelə Nazirliyin aparatının bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslərin bu sahədəki fəaliyyətində metodiki rəhbərliyi həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası İqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin strukturları, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarə orqanları və qeyri hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1. dövlət müəssisələrində korporativ idarəetmənin keyfiyyətinin yüksəldilməsinə,

korporativ idarəetmənin prinsip və üsullarının tətbiq edilməsinə, o cümlədən dövlət müəssisələrinin korporativ idarəetmə standartlarına uyğun fəaliyyət göstərməsinə dəstək olur;

2.2. dövlət müəssisələrinin müasir korporativ idarəetmə standartlarına uyğun fəaliyyət strategiyalarının hazırlanması və onların icrasında iştirak edir;

2.3. dövlət müəssisələrində korporativ idarəetmənin normativ hüquqi tənzimlənməsinin həyata keçirilməsində iştirak edir;

2.4. enerji, nəqliyyat, telekommunikasiya və rabitə sahəsində dövlət tənzimlənməsinin həyata keçirilməsində, bu sahənin inkişafı üzrə təkliflərin və tədbirlərin hazırlanmasında iştirak edir;

2.5. təsərrüfat fəaliyyətinin nəticələrinin və proqnozlarının təhlili əsasında dövlət müəssisələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsi və maliyyə dayanıqlılığının təmin olunmasına dair təkliflərin hazırlanmasında iştirak edir;

2.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### 3. Şöbənin vəzifələri

3. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1. dövlət müəssisələrinin korporativ idarə olunması ilə bağlı təhlillər aparmaq və lazım olduğu təqdirdə arayışlar hazırlamaq;

3.2. dövlət müəssisələrinin strategiyaları ilə bağlı təhlillər aparmaq və təkliflər vermək;

3.3. dövlət müəssisələrinin Müşahidə Şuralarının fəaliyyətinə dəstək göstərmək və onların iclaslarına çıxarılan məsələlərlə bağlı lazım olduğu təqdirdə arayışlar hazırlamaq və təkliflər irəli sürmək;

3.4. dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini araşdırmaq, təhlillər aparmaq, lazım olduğu təqdirdə arayışlar hazırlamaq və səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

3.5. dövlət müəssisələrinin dövr üzrə maliyyə və texniki-iqtisadi göstəricilərini təhlil etmək, lazım olduğu təqdirdə onlar barədə arayışlar hazırlamaq və müvafiq təkliflər vermək;

3.6. dövlət müəssisələrinin özəlləşdirilməsi və kapital bazarlarına çıxış imkanlarının genişləndirilməsində iştirak etmək;

3.7. enerji resurslarından səmərəli istifadə mexanizmlərinin və ölkənin yanacaq-enerji balansının işlənib hazırlanmasında, onun strukturunun təkmilləşdirilməsində iştirak etmək;

3.8. iqtisadiyyatın nəqliyyat, telekommunikasiya və rabitə sahələrinin inkişafı və təkmilləşdirilməsi üzrə dövlət tənzimlənməsinin həyata keçirilməsində iştirak etmək;

3.9. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlarla, yaxud təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslərlə korporativ qanunvericiliyin tələbləri üzrə işləri təşkil etmək, o cümlədən onların

idarəetmə orqanlarının fəaliyyətinin təmin edilməsi ilə bağlı səlahiyyətləri daxilində tədbirlər həyata keçirmək;

3.10. dövlət müəssisələrinin büdcə və gəlir-xərc smetalarının proqnozlarının icrasını təhlil etmək və lazım olduğu təqdirdə arayışlar və təkliflər hazırlamaq;

3.11. dövlət müəssisələrinin büdcə və gəlir-xərc smetalarının tərtibində iştirak etmək və təkliflər vermək;

3.12. dövlət müəssisələrinin investisiya planlarını təhlil etmək, investisiya planlarının hazırlanmasında iştirak etmək, sərmayə qoyuluşu ilə bağlı təkliflər vermək;

3.13. dövlət müəssisələrində müasir korporativ idarəetmə sistemlərinin, prinsiplərinin, üsulların və icra mexanizmlərinin tətbiq edilməsi üçün aidiyyəti qurumlarla birlikdə tədbirlər görmək;

3.14. korporativ idarəetmə məsələləri ilə bağlı xarici ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsini təşkil etmək, beynəlxalq əməkdaşlığın qurulmasına və inkişafına həsr olunmuş tədbirlərdə iştirak etmək;

3.15. dövlət müəssisələrinin maliyyə və büdcə, eləcə də gəlir-xərc smetalarının icrasına nəzarətdə iştirak etmək;

3.16. dövlət müəssisələrinin fəaliyyətində yaranan problemləri təhlil etmək;

3.17. böhran vəziyyətində dövlət müəssisələrinin böhran vəziyyətindən çıxarılması, müflisləşmədən qorunması, ödəmə qabiliyyətinin, maliyyə dayanıqlığının bərpası və sağlamlaşdırılmasına dair təkliflərin hazırlanmasında və onların realizə edilməsi üzrə tədbirlərin həyata keçirilməsində iştirak etmək;

3.18. dövlət müəssisələrinin fəaliyyətində effektivliyin artırılması və qarşıya çıxan çətinliklərin həlli məqsədilə yaradılan işçi qruplarında iştirak etmək;

3.19. Nazirliyin digər şöbə və qurumlarının müraciəti əsasında həmin şöbə və qurumların təkliflərinə dair rəy bildirmək və təkliflər vermək;

3.20. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.21. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.22. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4. Şöbənin vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

4.1. fəaliyyət istiqamətləri üzrə hazırlanmış qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair təkliflər vermək;

4.2. dövlət müəssisələrinin fəaliyyəti üzrə inkişaf konsepsiyaları, strategiya və

korporativ idarəetmə prinsiplərinin hazırlanması prosesinə zərurət yarandıqda müstəqil ekspertlərin, mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.3. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər və monitorinqlər aparmaq, dövlət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

4.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.5. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.6. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, müşahidə şuralarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən yerli və beynəlxalq səviyyəli tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.7. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.8. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olunmaqla, heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

5.2. Şöbənin strukturuna Korporativ idarəetmə sektoru, Nəqliyyat və telekommunikasiya müəssisələri sektoru, Enerji müəssisələri ilə iş sektoru və Təhlil və əlaqələndirmə sektoru daxildir.

5.3. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini(ləri) vardır. Şöbə müdirinin müavini(ləri) şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.5. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.6. Şöbə müdiri:

5.6.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.6.3. şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.6.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.6.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.6.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.6.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.6.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.6.9. şöbəni təmsil edir.

5.7. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1. Korporativ idarəetmə sektorunun vəzifələri aşağıdakılardır:**

6.1.1. dövlət müəssisələrinin korporativ idarə olunması ilə bağlı təhlillər aparmaq və lazım olduğu təqdirdə arayışlar hazırlamaq;

6.1.2. dövlət müəssisələrinin strategiyaları ilə bağlı təhlillər aparmaq və təkliflər vermək;

6.1.3. dövlət müəssisələrinin Müşahidə Şuralarının fəaliyyətinə dəstək göstərmək və onların iclaslarına çıxarılan məsələlərlə bağlı lazım olduğu təqdirdə arayışlar hazırlamaq və təkliflər irəli sürmək;

6.1.4. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlarla, yaxud təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslərlə korporativ idarəetmə baxımından işləri təşkil etmək, o cümlədən onların idarəetmə orqanlarının fəaliyyətinin təmin edilməsi ilə bağlı səlahiyyətləri daxilində tədbirlər həyata keçirmək;

6.1.5. ölkədə müasir korporativ idarəetmə sistemlərinin, prinsiplərinin, üsulların və icra mexanizmlərinin işlənib hazırlanması və tətbiq edilməsi üçün aidiyyəti qurumlarla birlikdə tədbirlər görmək;

6.1.6. dövlət müəssisələrinin korporativ idarəedilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsində iştirak etmək;

6.1.7. korporativ idarəetmə məsələləri ilə bağlı xarici ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsini təşkil etmək, beynəlxalq əməkdaşlığın qurulmasına və inkişafına həsr olunmuş tədbirlərdə iştirak etmək;

6.1.8. böhran vəziyyətində dövlət müəssisələrinin korporativ idarəetməsi, o cümlədən onların böhran vəziyyətindən çıxarılması, müflisləşmədən qorunması, ödəmə qabiliyyətinin, maliyyə dayanıqlığının bərpası və sağlamlaşdırılmasına dair təkliflərin hazırlanmasında və onların realizə edilməsi üzrə tədbirlərin həyata keçirilməsində iştirak etmək;

6.1.9. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, habelə fəaliyyət sahəsinə aid məsələlər üzrə keçirilən yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək və onların işində iştirak etmək;

6.1.10. Nazirliyin digər şöbə və qurumlarının müraciəti əsasında həmin şöbə və qurumların təkliflərinə dair rəy bildirmək və təkliflər vermək;

6.1.11. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə,müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.2. Enerji müəssisələri ilə iş sektorunun vəzifələri aşağıdakılardır:**

6.2.1. enerji sahəsində fəaliyyət göstərən dövlət müəssisələri üzrə tənzimləmənin həyata keçirilməsində və təkmilləşdirilməsində iştirak etmək;

6.2.2. enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi ilə bağlı mexanizmlərin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

6.2.3. enerji təhlükəsizliyi, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi sahəsində təkliflərin və tədbirlərin hazırlanmasında iştirak etmək;

6.2.4. ölkənin yanacaq-enerji balansının hazırlanmasında və onun strukturunun təkmilləşdirilməsində iştirak etmək;

6.2.5. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

6.2.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.7. enerji sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

6.2.8. enerji sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin büdcəsinin, gəlirlər və

xərclər smetasının hazırlanmasında, maliyyə-iqtisadi göstəricilərinin təhlilində, səmərəliliyin artırılması ilə bağlı təkliflər hazırlanmasında iştirak etmək;

6.2.9. enerji sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin investisiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsində iştirak etmək;

6.2.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.3. Nəqliyyat və telekommunikasiya müəssisələri sektorunun vəzifələri aşağıdakılardır:**

6.3.1. nəqliyyat və telekommunikasiya sahələrində fəaliyyət göstərən müəssisələr üzrə tənzimləmənin həyata keçirilməsində və təkmilləşdirilməsində iştirak etmək;

6.3.2. nəqliyyat və telekommunikasiya müəssisələrinin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

6.3.3. nəqliyyat və telekommunikasiya sahələrində fəaliyyət göstərən müəssisələrin inkişafı üzrə strategiyaların və məqsədli proqramların hazırlanmasında iştirak etmək;

6.3.4. nəqliyyat və telekommunikasiya müəssisələrinin fəaliyyətinin tənzimlənməsi, təmin edilməsi və təkmilləşdirilməsi məqsədilə qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək, digər dövlət orqanları tərəfindən bu istiqamətdə hazırlanmış sənəd layihələrinə rəy və təkliflər vermək;

6.3.5. nəqliyyat və telekommunikasiya müəssisələrinin institusional idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi üzrə təhlillər aparılmasında və təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.6. nəqliyyat və telekommunikasiya sahələrində fəaliyyət göstərən dövlət müəssisələrinin maliyyə-iqtisadi göstəricilərinin təhlilində, səmərəliliyin artırılması ilə bağlı təkliflər hazırlanmasında iştirak etmək;

6.3.7. nəqliyyat və telekommunikasiya müəssisələrinin investisiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsində iştirak etmək;

6.3.8. sektor üzrə statistik məlumatların toplanması, sistemləşdirilməsi və təhlilində iştirak etmək, müvafiq hesabatların hazırlanmasına dəstək vermək;

6.3.9. nəqliyyat və telekommunikasiya sahələrində özəl təşəbbüslərə və (və ya) dövlət-özəl tərəfdaşlığına əsaslanan təkliflərin dəyərləndirilməsində, təhlillərin aparılmasında və zərurət yarandığı təqdirdə qanunvericilik aktlarında dəyişikliklərə dair təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.10. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, habelə fəaliyyət sahəsinə aid məsələlər üzrə keçirilən yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək və onların işində iştirak etmək;

6.3.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə

edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək;

6.3.13. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

**6.4. Təhlil və əlaqələndirmə sektorunun vəzifələri aşağıdakılardır:**

6.4.1. dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini araşdırmaq, təhlillər aparmaq, lazım olduğu təqdirdə arayışlar hazırlamaq və səmərəliliyin artırılması istiqamətində təkliflər vermək;

6.4.2. dövlət müəssisələrinin dövr üzrə maliyyə və texniki-iqtisadi göstəricilərini təhlil etmək, lazım olduğu təqdirdə onlar barədə arayışlar hazırlamaq və müvafiq təkliflər vermək;

6.4.3. enerji, nəqliyyat və kommunikasiya müəssisələri istisna olmaqla digər dövlət müəssisələrindən daxil olan müraciətlərə qanunvericiliyin tələblərinə uyğun baxmaq;

6.4.4. dövlət müəssisələrinin özəlləşdirilməsi və kapital bazarlarına çıxış imkanlarının genişləndirilməsində iştirak etmək;

6.4.5. dövlət müəssisələrinin büdcə və gəlir-xərc smetalarının proqnozlarının icrasını təhlil etmək və lazım olduğu təqdirdə arayışlar və təkliflər hazırlamaq;

6.4.6. dövlət müəssisələrinin büdcə və gəlir-xərc smetalarının tərtibində iştirak etmək və təkliflər vermək;

6.4.7. dövlət müəssisələrinin investisiya planlarını təhlil etmək, investisiya planlarının hazırlanmasında iştirak etmək, sərmayə qoyuluşu ilə bağlı təkliflər vermək;

6.4.8. dövlət müəssisələrinin maliyyə və büdcə, eləcə də gəlir-xərc smetalarının icrasına nəzarətdə iştirak etmək;

6.4.9. dövlət müəssisələrinin fəaliyyətində yaranan problemləri təhlil etmək;

6.4.10. fəaliyyət sahəsi üzrə dünyada baş verən iqtisadi proseslərə dair analitik təhlillərin aparılmasında və həmin proseslərin ölkənin iqtisadiyyatına təsirinin qiymətləndirilməsində iştirak etmək;

6.4.11. Nazirliyin digər şöbə və qurumlarının müraciəti əsasında həmin şöbə və qurumların təkliflərinə dair rəy bildirmək və təkliflər vermək;

6.4.12. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, habelə fəaliyyət sahəsinə aid məsələlər üzrə keçirilən yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək və onların işində iştirak etmək;

6.4.13. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə,müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.4.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.